BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ
10 il Birgə

№2

# Autizm "Mavi Həyat"



**BAŞ REDAKTOR: MİLANA HƏSƏNOVA**
**İDEYA MÜƏLLİFİ: GÜLŞƏN TAĞIYEVA**
**REDAKTOR: FƏRİD SÜLEYMANOV**
**ART DİREKTOR: FƏRİD İSRAFİLOV**




# əziz oxucu

Hər il aprel ayı ümumbəşəri dəyərlərin ümumdünya miqyasında xüsusi rəğbətləndirildiyi zaman dilimi kimi qeyd edilir. Belə ki BMT Baş Assambleyasının qərarına əsasən 2007-ci ildən etibarən 2 aprel Dünya Autizm Maarifləndirmə Günü, aprel ayı isə autizm maarifləndirmə ayı kimi qeyd olunur.

Artıq uzun illərdir ki, aprel ayında fərqliliyə hörmət, qarşılıqlı yardımlaşma, humanist təhsil, inklüziv dəyərlər kimi mənəvi nemətlərin önəmi vurğulanır. Autizmli şəxslərin timsalında fərqliliyin rəngarənglik olduğuna şahid oluruq. Və fərqliliyin fonunda birgəliyin nə qədər qiymətli olduğunu bir daha anlayırıq.

Aprel ayında autizmlə bağlı üzərinə götürdüyü taleyüklü missiyanın layiqli icrası üçün "Birgə və Sağlam" İctimai Birliyi öz səylərini qatbaqat artırır, autizmə münasibətin müsbət yöndə dəyişməsi üçün kütləvi tədbirlər həyata keçirir. Bu xoşməramlı tədbirlərdən biri də böyük məmnunluqla sizə təqdim edilmiş "Autizm" jurnalıdır.

Jurnalın bu sayı İctimai Birliyin on illik yubileyi münasibətilə nəşr edilmiş ilk xüsusi buraxılışından sonra ikinci buraxılışıdı. Jurnalın məqsədi cəmiyyətin autizm haqqında dolğun məlumat əldə etməsi, beləliklə autizmi daha yaxından tanıması üçün məlumatlandırıcı məzmun təqdim etməkdir. Ümid edirik, autizmi populyar üslubda ictimaiyyətin diqqətinə çatdıran jurnalımız müsbət münasibətin formalaşmasına töhfə verə biləcək.

Gəlin hər səhifədə autizmi daha yaxşı tanıyaq və daha çox dəstək olaq!



# ƏMƏKDAŞLARIMIZ

Təhsil cəmiyyətin əsas binalarından biri olduğu kimi autizmli şəxslərin həyatında əhəmiyyətli yer tutur. Müəllimlərimiz bu binanın sağlam təməlləri üçün məhsuldar işləyən həqiqi qəhrəmanlardır. Bu əhəmiyyətli missiyada bizimlə birlikdə olan bütün müəllimlərimizə səmimi qəlbdən təşəkkürümüzü bildiririk.

Müəllimlərimiz yalnız bilik və bacarıq öyrədən deyil, sosial həyata qaynayıb-qarışmaları üçün övladlarımıza bələdçilik edən nəcib insanlardırlar. Onlar hər bir tələbənin potensialını ortaya çıxarmaq, onları gücləndirmək və dəstəkləmək üçün əllərindən gələni ən yaxşı şəkildə edirlər. Jurnalımızın bu rubrikasını minnətdarlıq əlaməti olaraq autizmli övladlarımızın həyatında müsbət dəyişiklik yaradan müəllimlərimizə ithaf edirik.







# VALİDEYNLƏRİMİZ

Zərrəcə şübhə yoxdur ki, həyatımızda ən etibarlı bələdçi və sadiq tərəf müqabillərimiz siz-dəyərli valideynlərimizsiniz. Bütün çatışmaqlıqlarımıza rəğmən bizi bir ömür boyu təmənnasız sevən sizsiniz. Autizmli bir şəxsin qəhrəmanı da məhz sizsiniz. Sarsılmaz inam, sonsuz şəfqət, yenilməz qətiyyətlə autizmli övladınızın yanındasınız. Dünyaya onun gözü ilə baxmağa, həyatı onun duyğuları ilə hiss etməyə çalışırsınız. Unutmayın ki, autizmli şəxslərə dost olan bir dünya qurmaq üçün çıxdığımız bu uzun, incə yolun öncülləri sizsiniz.

Jurnalın bir neçə səhifəsini sizə həsr etməklə böyük zəhmətinizi təqdir etmək istədik. Tükənməz sevginiz və əzmkar dəstəyiniz ən dərin ehtirama layiqdir.



**Zəhra Xələfova**

Autizmli övladın anası olmaq daha həssas valideynlik duyumu, böyük məsuliyyət hissi və mübarizlik tələb edir. Bu çətin öhdəliyi layiqincə yerinə yetirmək üçün ailələrə mənəvi-psixoloji və sosial dəstək göstərmək olduqca vacibdir. “Birgə və Sağlam” İctimai Birliyinin bu məsələyə həssaslığı təqdirəlayiqdir. Ailələrin maarifləndirilməsi, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması məsələsini əsas vəzifələrində biri kimi görən Birlik bir çox ailənin həyatında müsbət dəyişiklik yaratmağa nail olub. Şəxsən mən Birliyin nəzdindəki atelyenin imkanlarından istifadə edərək layihələr həyata keçirmişəm ki, bu layihələr mənim fərdi inkişafımda rol oynayıb və sosial təminatıma dəstək olub.




# AUTİZMLİ ÖVLADIMA MƏKTUB

***Oğlum Zəfərə..***

Canım oğlum Zəfər.. Sən bir qış günü gəldin dünyaya. 14yanvar.. Ən soyuq gün, amma buna baxmayaraq yay günəşi kimi parıldayırdı günəş.. Sən də günəşə bənzəyirdin, sap-sarı.. Sən o qışın soyuğuna, bahar kimi gəldin. Elə mənim ömrümə də sən gətirdin baharı, baharıma günəşi.. Səninlə bağlı sonsuz xəyallarım vardı.. Sən daha körpə olanda, qucağımda yatarkən, sənə danışardım xəyallarımı.. Bilmirdim ki.. Bilmirdim gül çiçək sandığım yolda çox tikanlar olacaq, çox tikanlar batacaq, çox tikanlar qanadacaq.. Səninlə birgə baharımı çiçəkləndirən, qardaşın gəldi dünyaya.. O daha 40 günlük idi, sənə diaqnoz qoyulanda.. Getdik psixologa və Autizm diaqnozu qoyuldu.. O gün heç ağlamadım, “səbr daşını çatladacaq qədər səbrliyəm” deyən mən, bilirdim uzun bir yol bizi gözləyir.. Başladıq səninlə “uzun, incə” bir yola.

Bəzi analar çox şanslı olurlar, övladları elə asan “ana” deyərək müraciət edir ki.. Bəzi analar isə, 3hərfdən ibarət, sadə bir söz üçün ömürlərini övladlarına fəda edirlər.. Və bəzi analar o müraciəti heç vaxt eşitməyəcəklərini də bilirlər..

Çətindir ana olmaq.. Hər an qırılacaqmış kimi yaşamaq.. Hər kəsin yerinə, hər nəyi düşünmək amma heç vaxt anlaşılmamaq.. O qədər çoxluğa qarşı, Ana olmaq, qadın olmaq, yoldaş olmaq, bir varlığı ilə min parçaya ayrılmaq.. Bütün bunlarla birlikdə, içindəki uşağın əlindən tutub, “Onu”-da yaşatmaq.. Hər zaman bir şeyləri, biriləri toparlamaq məcburiyyətində qalmaq.. Gücsüzlüklə mühakimə olunmaq amma hər çətinlikdə, sığınılan liman olaraq var olmaq.. Və bu təzad duyğular arasında yenə də ayaqda qalaraq yaşamaq..

Ana olmaq.. Bir gözün həqiqətlərə baxarkən, bir gözünlə xəyallara dalmaqdır.. Ana olmaq.. Həssas, narin qəlbinlə hər sıxıntıya dağ kimi durmaqdır.. Ana olmaq.. Hər bir gürültüdə, övladının nəfəsini duymaqdır.. Ana olmaq.. 9 ay bətnində, ömür boyu qəlbində daşımaqdır.. Ana olmaq.. Övladının boynuna dolanan qollarını, bütün mücəvhərlərdən üstün tutmaqdır.. Ana olmaq.. Günah dolu dünyada, işlənən ən böyük savabdır.. Ana olmaq.. Çətindir bir sözlə ana olmaq.. Və xüsusi övladın anası olmaq daha çətindir.. Bir baxış incidər bizi, bir söz yaralayar bizi.. Bəzilərinə adi gələn cümlə, günlərlə ağlımızda dolanar, yaş olaraq gözümüzdən axar.. Biz Analar bütün duyğuların, gözəlliklərin, zərifliklərin yer üzündə əksini tapmış halıyıq.. Bütün dərdlərə dərmanıq biz analar.. Bir az uşaq ruhlu, bir az həssas, incə lakin mövzu övladımız olunca dünyanı qarşımıza alacaq qədər güclü.. Cemal Süreyyanın dediyi kimi; Bir qadını ikiyə böl, yarısı anadır, yarısı uşaq..



Səninlə çox şey öyrəndim, əziz oğlum.. Səninlə bir mən də böyüdüm, səninlə bir ağladım, səninlə bir güldüm, səninlə yeniləndim, səninlə gücümün fərqinə vardım.. Səninlə əl-ələ tutuşub yol getməyi necə arzu etdiyimi bilsən kaş.. Səninlə söhbətləşərək gəzmək üçün, "ana" müraciətini necə gözlədiyimi bilsən kaş.. Gözü yaşlı gecələrimi, içimə atdığım çığlıqları, dünyamda qopan fırtınaları, demək istədiyim milyonlarca söz varkən, susub özümlə apardığım mübarizəni bilsən kaş.. Bir tək sənin üçün dünyaya meydan oxumaq cəsarətini özümdə tapdığımı bilsən kaş.. Səninlə xəyal etdiyim gələcəyi bilsən kaş.. Hər hansı bir kafedə oturub, keçdiyimiz bütün yolları, enişləri-yoxuşları, çətinlikləri, amma hər nəyin üstəsindən qalxa bildiyimizi, xatırlayaraq qəhərlənsəm də, qalib gəlməyin verdiyi xoşbəxtliklə qəh-qəhə atmağı necə arzuladığımı bilsən kaş.. Çəmənlərin üzərində uzanıb, səmaya baxaraq səninlə qurduğum bütün planların həyata keçdiyini, xəfif əsən bir külək, ağacların ecazkar görünüşü, yarpaqların xışıltısı, yarpaqların arasından parlayan günəş, quşların zümzüməsi, ətrafımıza yayılmış bahar qoxusu, o qoxunun sərxoşluğu, bir yanımda sən, bir yanımda qardaşın, hüzurun gətirdiyi, ifadə edə bilmədiyim, içimin içimə sığmadığı həyacan, üzümdə sevinc gülümsəməsi ilə Allaha olan minnətdarlığımı ifadə etmək istədiyimi bilsən kaş.. Həyat eşqimi itirsəm belə, səninlə olan ümidimi heç vaxt itirmədiyimi bilsən kaş.. Rəbbimə sənin üçün etdiyim, gözü yaşlı dualarımı bilsən kaş..

***Hələ yolun başındayıq, canım oğlum!***

Səninlə gediləcək yollar var.. Dinlənəcək musiqilər var.. İzlənəcək filmlər var.. Ediləcək söhbətlər var.. Oxunulacaq kitablar var.. Müzakirə ediləcək mövzular var.. Səyahət ediləcək ölkələr, kəşf ediləcək yerlər var.. Boyunun məndən hündür olduğunu, gözlərinin içinə baxıb gününün necə keçdiyini, məktəbi-universiteti uğurla bitirdiyini, bir qızı sevdiyini görmək istədiyim günlər var.. Səninlə yaşamaq istədiyim həyat, yaşlanmaq istədiyim ömür var! Səninlə sonsuz arzularım, ümidlərim və dualarım var.. Sən mənim, ən gözəl imtahımsan..

***Səni dünyalar qədər sevən, çox yorğun bir az qırılğan amma ümid dolu, sevgi dolu anan Nilufər..***




# KÖNÜLLÜLƏRİMİZ

Bu jurnalda dəyərli könüllülərimizin töhfə və dəstəyini qeyd etməsək olmazdı. Çünki onlar autizm məlumatlandırma və Birliyimizə dəstək işlərində əsas sətrlərdə yer alırlar. Onlar bizimlə çiyin-çiyinə verərək təmənnasız şəkildə vaxt, enerji və bacarıqlarını “autizm” adlı taleyüklü missiyaya həsr edirlər. Onlar miqyasından asılı olmayaraq Birliyimizin hər bir tədbirində fəal iştirak edirlər. Könüllülərimiz yalnız texniki dəstək komandası qismində çalışmırlar, onlar həm də autizmə mənəvi dəstək olan ali dəyər daşıyıcılarıdırlar.

Könüllülərimizin autizmə həsr etdiyi vaxt və enerjinin daha səmərəli nəticələr verməsi üçün onların fəaliyyəti “Könüllü Proqramı” çərçivəsində tənzimlənir. Bu proqram sadəcə standart vəzifə öhdəliklərinin icrasından ibarət deyil, həm də təşəbbüskarlıq, işgüzarlıq və real təcrübə üçün platformadır. Bu proqramla könüllülərimiz karyera həyatına ilk addımlarını atırlar. Zəhmətə ürək verən, əməyin gücünə inanan hər bir könüllü bu proqramdan öz layiqli nəsibini alır. Bizimlə könüllü kimi yola çıxıb əməkdaş kimi yolunu davam etdirən məzunlarımızın timsalında hər bir əməkdaşımıza uğurlar arzu edirik.











# "İNKLÜZİV İNKİŞAFA DƏSTƏK MƏRKƏZİ" ƏLAVƏ TƏHSİL MÜƏSSİSƏSİ

Əlaqədar sahələrdə kadrların peşəkar inkişafına daha mütəşəkkil formada dəstək göstərə bilmək üçün "Birgə və Sağlam" İctimai Birliyi tərəfindən "İnklüziv İnkişafa Dəstək Mərkəzi" əlavə təhsil müəssisəsi təsis edilib. Müəssisə bu günədək Elm və Təhsil Nazirlyi, UNICEF-in Azərbaycan Nümayəndəliyi, bir neçə özəl məktəb, həmçinin dövlət və özəl qurumlarla əməkdaşlıq çərçivəsində bir neçə peşəkar inkişaf təlimləri və maarifləndirmə seminarları təşkil etməyə nail olub. Pedaqoji kadrların səriştəsini yüksəltmək üçün təhsil müəssisəsinin geniş vizyonu uğurlu perspektiv vəd edir.





# AUTİZMİN BALACA DOSTU



## CİZGİ ROMAN

*Cizgi Romanınn ərsəyə gəlməsində könüllümüz Lamiyə Məmmədovaya dərin təşəkkürümüzü bildiririk.*



**Lamiyə Məmmədova**


Salam dostlar,
mənim adım Ceyhundur. Ya-
nımda dostum Həmzə var. Həmzə
autizmlidir. O, mənim ən yaxşı dost-
larımdandır. Mən Həmzə ilə vaxt
keçirməyi çox sevirəm
Biz indi onunla
təbiətdə gəzintiyə
çıxmışıq






BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ


Həmzənin ətraf aləmə, əşyalara olan marağı bir anda dəyişə bilər. Məsələn, onunla top oynayarkən birdən gedib başqa oyuncaqlarla oynamağa başlayır. Mən ondan nəzakətlə xahiş edirəm ki, hər şeyi səliqəli və ardıcıl edək. Onunla ayaqlaşmaq bəzən çətin ola bilər, ancaq onunla birlikdə olmaq mənə Xoşdur.





10 il
BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ


Həmzənin gözləri çox hassas-dır. Bəzən kəskin işıq və ya çox qaranlıq mühit onu narahat edə bilər. O deməsə belə mən onun narahat olduğunu anlayıram və biz dərhal həmin yeri tərk edirik.




BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ


Həmzə ilə tanış olanadək
autizmin nə olduğunu bilmirdim.
Onunla tanış olduqdan sonra autiz-
min bir fərqlilik olduğunu bildim.
Saçımız qara və ya sarı, gözümüz
mavi və ya qəhvəyi olduğu kimi
insanlar da bir-birindən
fərqlidir.




BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ


Həmzə bəzən məni möhkəm qucaqlayır. Bilirəm ki, o bəzən hərəkətlərini idarə edə bilmir. Buna görə ondan incimirəm, əksinə anlayış göstərirəm və dəstək oluram.


Həmzə məndən fərqli
olduğu üçün ətraf aləmi də
fərqli anlayır və məndən fərqli
münasibət göstərir. Onunla ün-
siyyət qurmaqda çətinlik çək-
dikdə böyüklərdən dəstək
alıram.


Mən Həmzə ilə dostluq etməyi çox Sevirəm!



# AUTİZM MƏHARƏTİ

Hər birimiz kimi autizmli şəxslər də bacarıq və qabiliyyətə malikdirlər. Ancaq öz potensiallarını reallaşdıra bilmələri üçün hər kəs kimi onların da dəstəyə ehtiyacı var. Çünki istedad və bacarıq münbit şəraitdə çiçəklənir. Akademik və iş həyatında öz sözlərini deyə bilmələri üçün autizmli şəxslərə inanmaq və onları lazımi dəstək mexanizmi ilə təmin etmək kifayət edir. Autizmli şəxslərin ehtiyaclarını qarşılayan minimum şərtlər təmin edildiyi halda onlar olduqca məhsuldar, məsuliyyətli, məqsədyönlü və işgüzar şəkildə çalışırlar. Bu isə bütün işəgötürənlərin təqdir etdiyi professional dəyərdir.

Təqdim etdiyimiz şəkillər silsiləsi autizmli gənclərimizin əməyə olan sevgisini, bacarığını, həmçinin işəgötürənlərin onlara olan etimadını əyani təsvir edir. Yeri gəlmişkən, göstərilən etimada və dəstəyə görə bütün işəgötürənlərə təşəkkürümüzü bildiririk!





# AUTİZMLİ GƏNCİN

Bu fotoseriya autizmli bir gəncin- Hamza Eynallının həyatında bir günə işıq salır. Hər bir kadr onun məişət və təhsil həyatındakı fəaliyyətləri əks etdirir.



**SƏHƏR ÖZÜNƏ QULLUQ EDİR**



**ASUDƏ VAXT KEÇİRİR**



**BOŞQABLARI QABYUYAN MAŞINA YERLƏŞDİRİR**



**KEKS HAZIRLAYIR**

# BİR GÜNÜ

Autizmli bir insanın həyatındakı bu adi kadrlar onu göstərir ki, bizdən fərqli olsalar da, onlar da bizim kimi nümunəvi həyat yaşaya – bizdən biri ola bilirlər. Yetər ki, gərəkli vərdişləri qazanmaları üçün onlara dəstək olaq.



GEÇƏ
YATIR



YARADICILIQLA
MƏŞĞUL OLUR



MƏTBƏXİ
TƏMİZLƏYİR



SALAT
HAZIRLAYIR



NAHAR
EDİR

# AUTİZM AUTİZİMLİLƏRİN DİLİNDƏN









RƏSMLƏRİN ƏRSƏYƏ GƏLMƏSİNDƏ ƏMƏYİNƏ GÖRƏ KÖNÜLLÜLƏRİMİZ AYSEL İMRANLI VƏ LAMİYƏ MƏMMƏDOVAYA DƏRİN TƏŞƏKKÜRÜMÜZÜ BİLDİRİRİK!










BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

# *TƏDQİQATLAR VƏ XƏBƏRLƏR*

## *Autizm və nitq*

Tədqiqatda birdən çox autizmli uşağı olan ailələri araşdırılıb və autizm riskinin artmasında rol oynaya bilən yeddi gen müəyyən edilib. Los-Anceles Kaliforniya Universitetinin (UCLA) tədqiqatçıları autizmli uşağı olan ailələr üzərində miqyaslı bir tədqiqat aparıb. Tədqiqatçılar autizm riski yaradan yeddi gen aşkarlayıblar. Tədqiqatçılar həmçinin genetikanın autizmin yaranmasına necə təsir göstərdiyinə dair daha çox bilgilər əldə ediblər.

“Proceedings of the National Academy of Sciences” jurnalında yayımlanan araşdırma məqaləsində qeyd edilir ki, dil problemi autizmin mühüm bir hissəsi kimi qəbul edilməlidir. İndiyədək aparılmış tədqiqatlar əsasın bir autizmli uşağı olan ailələr üzərində tədqiqat aparıblar, iki və daha çox autizmli uşağı olan ailələr isə diqqətdən kənarda qalıb. Yəni tədiqatlar nadir irsi genlərə və ya onların autizm riskini artıran çox yayılmış genetik varyasyonlara necə təsir göstərdiyinə əhəmiyyət verməyiblər.

Tədqiqata rəhbərlik edən Dr.Daniel Geschwind bildirib ki, tədqiqat üsullarının müəyyən edilməsi vacib məsələlərdəndir. Sözügedən tədqiqat çərçivəsində birdən çox autizmli uşağı olan ailələrin araşdırılmasına üstünlük verilib. Autizm genetika ilə sıx bağlıdır. Riskin təxminən yarısı ümumi genetik variasiyalardan, 15-20% isə təsadüfi mutasiyalar və ya irsiyyət nümunələrindən qaynaqlanır. Qalanları isə hələ ki, məlum deyil. Bu araşdırma üçün tədqiqatçılar ən azı iki autizmli uşağı olan 1004 ailədən olan 4551 nəfərin bütün genetik quruluşunu araşdırıblar. Bunlarda 1836 nəfəri autizmi olan uşaqlar, 418 nəfəri isə tipik inkişafa malik uşaqlar olub. Onlar autizm riskini artıra bilən yeddi gen tapdılar: PLEKHA8, PRR25, FBXL13, VPS54, SLFN5, SNCAIP və TGM1. Tədqiqat göstərir ki, autizm riski yalnız nadir mutasiyalar və ya poligenik faktorlarla deyil, onların qarşılıqlı təsirindən də yarana bilər. Tipik inkişafa malik valideynlərdən nadir mutasiyaları miras alan və eyni zamanda yüksək poligen riski olan uşaqların digər uşaqlara nisbətən autizmli olma ehtimalı daha yüksəkdir.

Bu, tək nadir mutasiyaya malik valideynlərin niyə autizmli olmadığını, lakin uşaqlarında autizmin ola biləcəyini izah edir. Bu fakt onu göstərir ki, bir çox kiçik genetik faktorlar birləşdirdə autizmin yaranmasına səbəb göstərə bilər. Bununla yanaşı, tədqiqat müəyyən edib ki, poligenetik səbəblərdən autizmi olan uşaqlarda nitq inkişaf ləngiməsi ehtimalı da yüksəkdir.

Bu hal yalnız autizmli şəxslərdə müşahidə olunur, yəni  şizofreniya və ya bipolyar pozuntusu olan şəxslərdə olmur. Bu isə öz növbəsində autizmli şəxslərdə rast gəlinən nitq ləngiməsi ilə genetik faktorlar arasında əlaqənin olduğunu göstərir. Ancaq “Psixi Pozğunluqların Diaqnostik və Statistik Təlimatı” (DSM-5) sənədinə əsasən nitq ləngiməsi autizmin əsas əlaməti hesab edilmi, çünki autizmli şəxslərdə müxtəlif səviyyəli nitq müşahidə olunur. Ancaq Dr. Geschwind qeyd edir ki, autizm riski ilə nitq ləngiməsi arasında sıx əlaqənin olması onu göstərir ki, əslində nitqin olmaması və ya zəifliyi autizmin əhəmiyyətli bir parçasıdır. Ancaq bunu təsdiqləmək üçün daha böyük miqyasda tədqiqatların aparılması zəruridir.

***Mənbə: www.neurosciencenews.com***

# *Autizmdə bağırsaq və beyin arasındakı əlaqəni aşkarlayan yeni elmi tədqiqat*

Aprılmış elmi araşdırmalar nəticəsində tədqiqatçılar bağırsaq bakteriyaları və autizm spektr pozutusu (ASP) arasında ciddi bir əlaqənin olduğunu aşkarlayıblar. "Nature Neuroscience" jurnalında dərc olunan və ən yeni texnologiyaların tətbiq edildiyi bu tədqiqat 20 ildən artıqdır ki, tədqiqatçıları düşündürən bu məsələyə aydınlıq gətib.

Autizm idrak, davranış və ünsiyyət çətinliklərindən ibarət bir spektrdə baş verən kompleks neyroinkişaf pozuntusudur. Bağırsaq mikrobiomu həzm sistemimizdə yaşayan canlı mikroorqanizmlərin canlı kütləsidir ki, bunun insan sağlamlığına bir çox yöndən təsir etdiyi hesab edilirdi, autizm də bunlardan biridir.

1990-cı illərdə ortaya çıxan bir mülahizəyə görə antibiotik müalicəsindən sonra autizmli şəxslərin davranışlarında dəyişikliklər müşahidə olunurdu. Bu müşahidələr bağırsaq bakteriyaları ilə ASP simptomları arasında bir əlaqənin olduğuna işarə edirdi.

Autizmli şəxslərin bağırsaq mikrobiomunun tərkibində dəyişikliklərin olub-olmamasını aşkarlamaq məqsədilə aparılmış bəzi tədqiqatlar olsa da, əldə edilmiş elmi tapıntılar bunu tam təsdiqləmirdi. Bu qeyri-müəyyənliyi aradan qaldırmaq üçün Simpson Fondu Autizm Tədqiqarlar Təşəbbüsü (The Simons Foundation Autism Research Initiative (SFARI) geniş miqayaslı tədqiqatlara başladı. Nəticədə ciddi təhlil və innovativ hesablama metodları vasitəsilə tədqiqatçılar bağırsaq mikrobiomunun tərkibindəki müvəqqəti dəyişikliklər və müşahidə olunan ASD əlamətləri və simptomları arasında qəti əlaqəni müəyyən etdilər. Bu kəşf nəinki uzun müddətdir şübhəli olan bir faktı təsdiqləyir, həmçinin inqilabi müalicə üsullarının tətbiq olunmasına da imkan yaradır. Tədqiqat bağırsaq mikrobiomu, immun genləri, pəhriz və beyin siqnalı üçün həyati vacib olan nevroloji yollar arasında əlaqələrin olduğunu aşkarladı.

Maraqlıdır ki, tədqiqatda autizmlə əlaqəli mikroblarla nəcis mikrobiota transplantasiyası (FMT) tədqiqatlarında aşkarlanmış mikroblar arasında uyğunluq tapılıb. Bu isə mikrobiota transferi vasitəsilə autizm simptomları və bağırsaq mikrobiotası üzərində müsbət təsirlərin əldə edilə biləcəyinə işarə edir.

Bununla belə, qeyd etmək vacibdir ki, tədqiqat mikrobiom və autizm arasında statistik əlaqə tapsa da, səbəb-nəticə əlaqəsinin istiqaməti qeyri-müəyyən olaraq qalır. Pəhriz saxlamaq və bunu kimi faktorlar, həmçinin genetik variasiyalar autizmli şəxslərdə müşahidə olunan mikrobiom nizamsızlığına təsir göstərən faktorlar ola bilər.

Bu tədqiqat gələcəkdə autizm üzrə müxtəlif tədqiqat istiqamətləri arasında əlaqənin qurulması üçün zəmin yaradır. Bağırsaq və beyin arasında mürəkkəb əlaqəni araşdırmaq üçün kompüter texnologiyaları və biologiyanin birləşdirilməsi zərurəti aydın görünür. Yeni tədqiqatlar genetik quruluşum qədər bağırsaq mikrobiomunun da bizə təsir göstərdiyi faktını aşkarlaya bilər.

***Mənbə: www.euronews.com***

# MƏZUNLARIMIZ

Autizm Mərkəzinin təhsil proqramından uğurla məzun olan autizmli qəhrəmanlar... Hər bir məzunun unikal uğur hekayəsi var. Hər bir uğur hekayəsinin arxasında gərgin zəhmət və yorulmaz mübarizə var. Hər bir mübarizənin arxasında sevgi, ümid və həyat eşqi var.

Məzunlarımızın təhsil proqramını uğurla başa vurması müəllimlərin böyük əməyi və valideynlərin davamlı dəstəyi sayəsində mümkün olub. Məzunlarımızın uğuruna töhfə verən hər kəsin “autizmə dəstək” şövqünü ehtiramla təqdir edirik!



Autizm

Mavi Həyat

"Autizm" jurnalının №2 sayı NEQSOL Holding-in dəstəyi ilə "Birgə və Sağlam" İctimai Birliyi tərəfindən həyata keçirilən "Autizmə Dəstək" layihəsi çərçivəsində hazırlanmışdır.

10 il BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

NEQSOL HOLDING

azerconnect

NORM

www.birgesaglam.az
www.autizmportali.az

BİRGƏ VƏ SAĞLAM